**Azərbaycan Respublikasının Auditorlar Palatasına assosiativ üzvlər qəbul edilmişlər**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa və "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə uyğun olaraq beynəlxalq təcrübə nəzərə alınmaqla Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2015-ci il 22 iyun tarixli 264/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında Əsanamə" hazırlanmışdır. Əsanamə Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlüyə qəbul şərtləri və qaydalarını, Auditorlar Palatasının üzvlərinin hüquq və öhdəliklərini, Auditorlar Palatasına üzvlük haqlarının ödənilməsi qaydalarını və müddətlərini, Auditorlar Palatasının üzvlüyünün dayandırılması şərtlərini və qaydalarını və Auditorlar Palatasının üzvlüyündən çıxmağın qaydasını müəyyən edir.

Bu Əsasnamənin məqsədi - beynəlxalq təcrübə nəzərə alınmaqla Azərbaycan Respublikasında auditin inkişaf etdirilməsi və əhatə dairəsinin genişləndirilməsi, onun idarə edilməsinin təkmilləşdirilməsi, kadr potensialının müəyyən edilməsi və ondan səmərəli istifadə edilməsi, peşənin imicinin yüksəldilməsinə mütəxəssislərin cəlb edilməsindən ibarətdir.

Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 1.17-ci "Auditorlar Palatasına həqiqi, assosiativ və fəxri üzvlüklə bağlı tədbirlərin davam etdirilməsi" bəndinə uyğun olaraq, son günlərdə müxtəlif qurumlardan müraciət etmiş aşağıdakı 5 nəfərin Auditorlar Palatasında ekspert qismində fəaliyyət göstərmələri məqsədilə Palataya assosiativ üzv qəbul edilmişlər:

| Sıra №-si | Assosiativ üzvün adı, soyadı və atasının adı | Vəzifəsi | Üzvlüyə qəbul olunma tarixi və fəaliyyəti |
|---|---|---|---|
| 1. | Kərimova Təranə İsa qızı | Azərbaycan Dövlət İqtisad Universiteti, Distant, qiyabi və əlavə təhsil mərkəzinin direktor müavini, "Qiymət və qiymətləndirmə" kafedrasının dosenti | 23.06.2016 Qiymətləndirmə üzrə ekspert |
| 2. | Qəribli Emin Adil oğlu | Azərbaycan Dövlət İqtisad Universiteti, Distant, qiyabi və əlavə təhsil mərkəzinin şöbə müdiri, "Beynəlxalq iqtisadiyyat" kafedrasının dosenti | 23.06.2016 Kadr hazırlığı üzrə ekspert |
| 3. | Məmmədov Zahid | Azərbaycan Dövlət İqtisad Universiteti, | 24.06.2016 |

| | | | |
|---|---|---|---|
| | Fərrux oğlu | “Elm” şöbəsinin müdiri, iqtisad elmləri doktoru, professor | Maliyyə məsələləri üzrə ekspert |
| **4.** | Əliyev Məmməd Ələkbər oğlu | Azərbaycan Dövlət İqtisad Universiteti, “Biznesin idarə edilməsi” kafedrasının müdiri, iqtisad elmləri namizədi, dosent | 24.06.2016 Kadr hazırlığı üzrə ekspert |
| **5.** | Musayeva Nəzakət Məmməd qızı | Azərbaycan Dövlət İqtisad Universiteti, “Mühasibat uçotu və audit” kafedrasının baş müəllimi, iqtisad üzrə fəlsəfə doktoru | 30.06.2016 Audit kadrlarının hazırlığı üzrə ekspert |